# Andına sadiq Prezident

*İşğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



***Azərbaycan Prezidenti İlham Əliyev mayın 10-da "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salandan sonra şəhərdəki inzibati binanın qarşısında müraciət etdi. Dövlətimizin başçısı müraciətində Füzuli şəhəri və qədim mədəniyyət paytaxtımıza səfərinin ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə reallaşdığını diqqətə çatdıraraq, keçən il bu təqvimdə Naxçıvana getdiyini xatırlatdı.***

Ölkə rəhbəri çıxışında daha sonra ümummilli lider Heydər Əliyevin Azərbaycan qarşısında misilsiz xidmətlər göstərdiyini, ən çətin anlarda xalqımızın yanında olduğunu, respublikamızı böyük bəlalardan, faciələrdən xilas etdiyini vurğuladı: "Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu".

Dahi şəxsiyyət Azərbaycana rəhbərliyinin birinci dönəmində respublikamızın quruculuq salnaməsinə yüksək göstəricilərlə ifadə edilən uğurlu səhifələr yazdığı kimi, müstəqillik dövründə də ölkəmizin inkişafında misilsiz xidmətlər göstərib, dövlətçiliyin itirilməsi təhlükəsini aradan qaldırıb, respublikada ictimai-siyasi sabitliyi bərqərar edib. İşğalçı Ermənistan ilə müharibənin gedişində isə ciddi dönüşü gerçəkləşdirib. Bu, Azərbaycan qoşunlarının Füzuli rayonu istiqamətində uğurlu əməliyyat keçirərək, Horadiz qəsəbəsi və ətraf kəndləri işğalçılardan azad etməsində özünü göstərib. Bununla da erməni silahlı qüvvələrinin işğalı genişləndirmək planlarının qarşısı alınıb, Ermənistan 1994-cü ilin mayında cəbhə xəttində atəşkəs elan edilməsinə və danışıqlar masasına qayıtmağa məcbur olub.

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki şanlı qələbəsinin əsaslarını da vaxtilə ulu öndər Heydər Əliyev böyük uzaqgörənliklə formalaşdırıb. Belə ki, ümummilli lider Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqlarının 20 faizindən çoxunun işğalı, 1 milyondan çox yerli sakinin didərgin salınaraq çadırlarda yaşaması və digər dövlət əhəmiyyətli məsələlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, mövcud problemlərin həlli sahəsində çox gərgin və genişmiqyaslı fəaliyyət göstərib.

Onu da deyək ki, ulu öndərin fəal diplomatik səyi nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişib. BMT Təhlükəsizlik Şurasında, ATƏT-in Budapeşt (1994) və Lissabon (1996) sammitlərində, İƏT-in üzv dövlət başçılarının zirvə toplantılarında düşmən dövlətin işğalı pislənilib və Qarabağ probleminin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair sənədlər imzalanıb.

*(ardı 6-cı səhifədə)*

# Andına sadiq Prezident

*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, təlatümlü bir dövrdə respublikamızı parçalanmaq təhlükəsindən qurtaran, onu inkişaf etdirən, beynəlxalq aləmdə tanıdan, nüfuz qazandıran, torpaqlarımızın işğaldan azad olunmasına əhəmiyyətli zəmin hazırlayan məhz ulu öndər Heydər Əliyev olub. Başqa sözlə, ümummilli lider bugünkü güclü, qüdrətli Azərbaycanı öz zehni, düşüncəsi, müdrikliyi ilə yaradıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb. Məhz elə buna görə də dahi şəxsiyyətin adı həz zaman müasir müstəqil Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

Bunun real nəticəsini xalqımız 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində gördü. Vətən savaşında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun əldə etdiyi parlaq qələbə ilə torpaqlarımız işğaldan azad olundu.

Prezident İlham Əliyev sözügedən müraciətində vurğuladığı kimi, əfsuslar olsun ki, dahi şəxsiyyət bu günü görə bilmədi: “Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik”.

Dövlətimizin başçısı çıxışında tarixi bir məqamı da diqqətə çatdıraraq, 2003-cü ildə etimad göstərilib prezident seçilərsə, ulu öndərin yolu ilə gedəcəyi, prinsiplərinə sadiq qalacağı, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyi ilə bağlı xalqımıza vəd verdiyini və ötən müddətdə bu vədi doğrultduğunu, şərəflə yerinə yetirdiyini bildirdi: “Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır. Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən ulu öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm”.



Vətən müharibəsində əldə etdiyimiz qələbəyə görə xalqımız ümummilli lider Heydər Əliyevə həm də ona görə minnətdardır ki, onun siyasi-iqtisadi, ordu quruculuğu sahələrində həyata keçirdiyi bütün islahatlar, demək olar ki, bu məqsədə yönəlmişdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dahi öndər tərəfindən Azərbaycanın qələbəsi üçün çox önəmli hüquqi baza, hüquqi zəmin yaradılmışdı.

Bu gün işğaldan azad edilən ərazilərin yenidən qurulması, həmin torpaqlarda ən müasir infrastrukturun yaradılması və mədəni-tarixi abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Keçmiş məcburi köçkünlərin bu ərazilərdə yaşayışının mütərəqqi beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər gerçəkləşdirilir. Bu çərçivədə icra olunan layihələr isə həmin yerlərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini, həmçinin iqtisadi inkişafını şərtləndirir. Prezident İlham Əliyev müraciətində bununla bağlı dedi: “Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik”.

Dövlətimizin başçısı müraciətinin sonunda ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə bura, azad edilən və gülüctana çevrilən Qarabağa mütləq gələcəyini və buna əməl etdiyini diqqətə çatdırdı: “Ulu öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq”.

***“Xalq qəzeti”***